# “Biz haqq yolundaydıq, işimiz haqq işi idi və zəfər çalmalıydıq”

*“Böyük amallar uğrunda savaşanlar” – deyə, söz açanda, ilk sırada Vətənin azadlığı, ölkənin ərazi bütövlüyü naminə çarpışanların adı yazılmalıdır.*

**Ernest HEMİNQUEY**
**Nobel mükafatı laureatı**

**Ötən ay İkinci Qarabağ müharibəsindəki şanlı Qələbəmizin birinci ildönümünü qeyd etdik. O günü əsrlər boyu gözləmişdik. Yüz illər idi ki, torpaqlarımız parçalana-parçalana əlimizdən alınsa da, bu haqsızlıqlara qarşı kəsərli addım ata bilmirdik. Çünki düşmənin himayədarları çox idi. Bu xoşbəxtliyi xalqımıza Heydər Əliyev dühası və Prezident İlham Əliyevin qətiyyəti bəxş etdi. İlham Əliyev sübut etdi ki, düşmənin havadar və himayədarları nə qədər çox olsa da, böyük amallar uğrunda savaşanları “tunelin o başında” möhtəşəm Zəfər gözləyir.**

İndi isə ötən ilin dekabrında ölkəmizin paytaxtında keçirilmiş möhtəşəm Zəfər paradının ildönümünü qeyd edirik. Belə paradı bütöv bir əsr boyu arzulamışdıq. Doğrudur, milli tariximizdə “Bakının bolşevik-daşnak işğalından azad edildiyi gün” kimi şanlı səhifə vardır. Ancaq o vaxt düşməni kapitulyasiya sənədini imzalamağa məcbur edə bilməmişdik. Üstəlik, Zəfər paradında dünya ictimaiyyətinə sübut etdik ki, işğalçı ölkənin qaniçən ordusunun bu qədər hərbi texnikasını əlindən almışıq. Hətta, həmin silahların xeyli hissəsini “böyük Ermənistan”ın “möhtəşəm ordusu”nun əsgərləri döyüş meydanlarında qoyub qaçmışdılar.

*(ardı 2-ci səhifədə)*

# “Biz haqq yolundaydıq, işimiz haqq işi idi və zəfər çalmalıydıq”

*(əvvəli 1-ci səhifədə)*

Bu əlamətdar gün ərəfəsində qələmə aldığımız sətirləri cənab Prezidentin düşmənin təxribatlarının qarşısını almaq üçün başladığımız hərbi əməliyyatların ilk saatlarında dilə gətirdiyi “Biz zəfər çalacağıq!”- ifadəsi ilə başlamağımız təsadüfi olmadı. Çünki, aqillərin fikrincə, qələbəyə inam yoxdursa, hətta, böyük amallar uğrunda başlanan savaş belə səmərəsiz başa çatır. İlham Əliyev həmin qətiyyəti təkcə müharibənin başladığı gün deyil, ölkəyə rəhbərlik etdiyi bütün illərdə nümayiş etdirmiş, xalqı və ordunu böyük qələbəyə inandırmışdı. Ona görə də istənilən hərbçi dövlət başçısının “İrəli!” əmrini gözləyirdi. Ordumuz həmin əmri Ali Baş Komandandan eşidəndən ay-yarım sonra düşmən ağ bayraq qaldırdı.

Türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürk deyibmiş ki, bir neçə ölkənin birləşmiş qüvvələri ilə apardığımız qanlı savaşlarda bizim qalib gəlməyimizin əsas səbəblərindən biri də Allahın haqsızları deyil, haqlıları dəstəkləməsi idi. Maraqlıdır ki, biz bu qəbildən olan ifadələri ötən il iyulun 13-də – Ermənistanın Tovuz təxribatlarından sonra Birinci vitse-prezident Mehriban xanım Əliyevanın “Instagram” səhifəsində oxumuşduq: “Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq! Bizim torpağımız, Vətən uğrunda mübarizəmiz müqəddəsdir! Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır! Biz daha da güclü olmalıyıq və olacağıq, daha sıx birləşəcəyik!”

Bəli, biz böyük amallar uğrunda başladığımız müqəddəs müharibədən əvvəl daha da güclü olmağı bacardıq və daha sıx birləşərək əsas məqsədimizə nail olduq.

Bu əlamətdar günlərdə xüsusilə yada salınmalı məsələlərdən biri də qardaş Türkiyə Cümhuriyyətinin bizim haqq işimizi daim dəstəkləməsi idi. Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etmişdilər. Dövlət başçımız həmin çıxışında demişdi: “İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi”.

Doğrudan da, Türkiyə bizim zəfərimiz üçün çox böyük işlər görmüşdür və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də Türkiyə dövləti də, şirkətləri də bizimlə bir yerdədir.

Bu məqamda xatırlatmalı başqa bir məsələ də var. Bu gün Prezident İlham Əliyev Azərbaycanın işğalçı dövlət üzərindəki tarixi qələbəsinin regionda yaratdığı yeni reallıqları dünya ictimaiyyətinə məhz olduğu kimi çatdırmaqla məşğuldur. Bu baxımdan dövlət başçımızın bu il sentyabrın 3-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda səsləndirilən çıxışında demişdi ki, ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kənd azad edilmişdir: “Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən – Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır”.

Dövlət başçımız orada ermənilərə və onların havadarlarına növbəti dəfə xatırlatmışdır ki, Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Bundan başqa, Azərbaycan Prezidenti BMT tribunasından dünya ictimaiyyətinə tarixi bir müraciət ünvanladı: “Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram”.

Bəli, böyük amallar uğrunda başlanan müqəddəs müharibənin sonunda tarixi zəfərin sevincini yaşadıq. “Anadolu” İnformasiya Agentliyinin yazdığı kimi, bu zəfər Azərbaycanın haqq-halalıdır!”

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.- 9 dekabr.- S.1;2.